

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 36 (22.947)

22 fevral 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əmir Hatəminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahədə uğurla inkişaf etdiyini deyib.

Müdafiə və silahlı qüvvələrə dəstək naziri Əmir Hatəmi qeyd edib ki, İran İslam Respublikasının Ali rəhbəri öz çıxışlarında həmişə İranın Azərbaycanla münasibətlərinin dostluq və qardaşlıq, bərabər qonşuluq münasibətləri olduğunu bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Azərbaycan-Niderland Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 21 fevral tarixli Sərəncamı ilə Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının avtomobil yol işçiləri də vardır.

**Ağayev Asif Hüseyn oğlu**

**İbrahimov Yaşar Abbas oğlu**

**Salmanov Hüseyn Yusif oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Heydərabaddan Əlincəqalaya səyahət

***2018-ci il fevralın 20-də Amerika Birləşmiş Ştatlarında nəşr olunan "Eurasia Review" və Avropanın nüfuzlu qəzetlərindən olan "Moderndiplomacy" qəzetlərində Naxçıvan Muxtar Respublikası barədə məqalə nəşr edilmişdir. Həmin məqaləni diqqətinizə çatdırırıq.***



Naxçıvan Muxtar Respublikasının rəhbəri cənab Vasif Talıbov Naxçıvanın regionlarının inkişafı, turizm infrastrukturunun yenilənməsi və meşə zolaqlarının salınması layihəsini həyata keçirməklə iqlim dəyişikliyi təhlükəsinə qarşı ölkəsinin dünya qarşısındakı mövqeyini möhkəmləndirmişdir. Paris müqaviləsinin memarları və beynəlxalq ictimaiyyət Azərbaycanın qərbində yerləşən Naxçıvanı Qərbi Avropa ölkəsi kimi inkişaf etdirən Ali Məclisin Sədrinin həyata keçirdiyi layihələrə daha çox diqqət yetirməlidir.

Son on il ərzində Ali Məclisin Sədri Naxçıvanın yenilənən enerji resurslarını köklü şəkildə dəyişmişdir. Naxçıvan Muxtar Respublikası ərazi nisbəti baxımından dünyanın ən çox hidroelektrik stansiyasına sahibdir. Naxçıvanda beş hidroelektrik, bir ədəd günəş enerjisi və bir ədəd qaz-turbin stansiyası tikilib istifadəyə verilmişdir.

Ermənistanla sərhəddən yalnız bir neçə metr məsafədə və tərk edilmiş təhlükəli bir erməni kəndindən yüz metr aralıda yerləşən nümunəvi Heydərabad qəsəbəsində tikilmiş yeni yol, orta məktəb, xəstəxana və şəhər mərkəzinin infrastrukturu cazibədar bir turizm marşrutudur.

Bundan əlavə, xarici ölkələrdən gələn qonaqlar Azərbaycan tərəfdə olan firavan şəhərin bütün şəraitini yüksək qiymətləndirdikləri bir vaxtda Ermənistan tərəfində isə çiy kərpic, yaxud palçıqdan tikilmiş evlərdə yaşayan kifayət qədər yoxsul bir cəmiyyət vardır. Həmin kənd Yerevan faşist rejimi tərəfindən bu vəziyyətə salınmışdır.

2017-ci il noyabrın 23-də Şərur rayonuna səfər edərkən mən yolun hər iki tərəfində Naxçıvan muxtar dövləti tərəfindən meşə zolaqlarının salınması ilə bağlı başladılan kampaniyanı müşahidə etdim. Meşə zolaqlarının salınması kampaniyasına vətəndaş cəmiyyətləri cəlb olunmuşdu. Ali Məclis Sədrinin ideya və yüksək rəhbərlik bacarığı Azərbaycan Respublikasının iqtisadiyyatı üçün mühüm əhəmiyyətə malik olan turizm infrastrukturunu da əhatə edir. Tarixi-mədəni və arxeoloji abidələrin təmiri muxtar respublikanın dünyada təbliği üçün mühüm əhəmiyyətə malikdir.

Tarixi abidələrin bərpa edilməsi və turizm infrastrukturunun dəstəklənməsi sahəsindəki praktiki liderlik təşəbbüsü Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsində mühüm rol oynamışdır.

Təxminən, Naxçıvan şəhərindən birsaatlıq məsafədə yerləşən Əlincəqala Ali Məclis Sədrinin ideyasının şah əsəridir. Bura əsas turistik ərazidir, VI əsrdə dağın üzərində tikilmiş tarixi abidə və mükəmməl mühəndislik ixtirasıdır. Müdafiə sistemini qüvvətləndirən istehkamlar 1800 metr yüksəklikdədir. Azərbaycanda yüksək hündürlükdə tikilmiş digər qalalar da var, lakin onlar Əlincəqala ilə müqayisə edilə bilməz. Təbii maneələr və istehkam birləşmələri bu qalanı alınmaz edib. Dağın üzərində 50-yə yaxın bina: anbarlar, hamam, təndirlər, zərbxana, silah anbarı və hökmdar sarayı yerləşmişdir. Bir çox hökmdarlar bu qalada öz xəzinələrini saxlamışdır; Azərbaycan Atabəyləri, Eldənizlər, Hülakülər və Cəlairilər.

O zaman Əlincəqaladan daha təhlükəsiz bir yer tapmaq çətin idi. Əlincəqala saxlancına qoyulan xəzinələrin miqdarı o qədər idi ki, Çobani sülaləsindən olan Məlik Əşrəfə həmin sərvəti daşımaq üçün 1000 dəvə və 400 ədəd qatır lazım olmuşdu.

Qartalların yuva qurduğu qalaya yalnız iki yol var. Qalanın şərq yamacında dar cığır var ki, oradan yalnız iki nəfər qalxa bilər, lakin həmin yol 3 divarla bağlanmışdır. Hər bir divarın hündürlüyü 9 metrdir və qırıq kərpicdən deyil, böyük daşlardan inşa edilmişdir. Divarları orta əsr topları ilə dağıtmaq belə, mümkünsüz idi. Bundan əlavə, qalaya gedən yollarda inşa edilmiş nəzarət binaları və xəbərdarlıq məntəqələri ilə yamaclar arasında, bir-birindən 20-25 addım məsafədə iki və ya üç balaca sığınacaq vardır. Ümumiyyətlə, Əlincəqalada hər bir santimetr ərazinin alınması hücum edənlərin həyatı bahasına başa gəlirdi. Qeyd etmək vacibdir ki, Əlincəqala dik dağın başında yerləşir və zirehli forma ilə təchiz olunmuş hər bir döyüşçünün qalaya qalxması onun gücünün tükənməsinə gətirib çıxara bilərdi. Buna görə də qalaya qalxmaq istəyənlər 600-dən çox qala müdafiəçisinin oxlarına asan bir hədəf olurdu.

Dünya tarixinə Naxçıvan Muxtar Respublikasının bəxş etdiyi bu tarixi abidə və digər orta əsr abidələri Naxçıvanda dəqiqliklə bərpa edilmişdir. Həmin abidələri ziyarət edib baxmaq çox asandır. Ali Məclis Sədri cənab Vasif Talıbov Naxçıvanı Avropanın ən gözəl yerlərindən birinə çevirmişdir. Əlincəqalada bərpa işləri onun təşəbbüsü ilə həyata keçirilmişdir.


**Peter TASE**

***Amerikalı jurnalist və tədqiqatçı***


## 2018-ci ilin yanvar ayında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2018-ci ilin yanvar ayında 163 milyon 397 min 300 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz artaraq 360,7 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 89 milyon 940 min manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövründəki göstəricini üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində 2018-ci ilin yanvar ayında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 51 milyon 618 min manat vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitin 48 milyon 465 min manatı və ya 93,9 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

Bəhs olunan dövrdə 7 milyon 929 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz çoxdur. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 1967 ton ət, 1974 ton süd istehsal edilmiş, bir il öncəki göstərici ilə müqayisədə ət istehsalı 7,5 faiz, süd istehsalı 1,9 faiz artmışdır.

* * *

2018-ci ilin yanvar ayında informasiya və rabitə xidmətlərinin dəyəri 3 milyon 947 min manat olmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 3,6 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 2 milyon 992 min manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,4 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2018-ci ilin yanvar ayında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 2462,8 min manat məbləğində kreditlər verilmişdir. Verilmiş kreditlərin 264,6 min manatı və yaxud 10,7 faizi qısamüddətli, 2198,2 min manatı və yaxud 89,3 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 fevral 2018-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 64864-ə çatmışdır ki, bunun da 56038-i və ya 86,4 faizi aktiv hesablardır. 2018-ci ilin yanvar ayında açılmış 787 bank hesabının 780-i aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 fevral 2018-ci il tarixə 1260-a çatmışdır.

* * *

2018-ci ilin yanvar ayında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 386 min 500 manat olmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 11,9 faiz çoxdur.

* * *

Cari ilin yanvar ayında muxtar respublikaya 17 min 115 turist gəlmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,2 faiz və ya 850 nəfər çoxdur.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2018-ci ilin yanvar ayında muxtar respublikada 26 milyon 144 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 23 milyon 902 min 100 ABŞ dolları təşkil etmiş, 21 milyon 659 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2017-ci ildə muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 420,1 manat təşkil etmiş və bu göstərici 2016-cı illə müqayisədə 1,7 faiz artmışdır.

* * *

1 yanvar 2018-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3688 nəfər artaraq 452 min 831 nəfər olmuşdur.


***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Məntəqə seçki komissiyalarının sədrləri və katibləri üçün seminar-müşavirələr keçirilib

*Fevralın 21-də Şərur Olimpiya-İdman Kompleksində 1 saylı Şərur-Sədərək və 2 saylı Şərur Seçki dairələrinin məntəqə seçki komissiyalarının sədrləri və katibləri üçün seminar-müşavirə keçirilib.*

Tədbiri giriş sözü ilə açan 2 saylı Şərur Dairə Seçki Komissiyasının sədri İbrahim Abbasov bildirib ki, bu il aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar Şərur rayonunda da lazımi hazırlıq işləri görülür. Bu gün 2 saylı Şərur Seçki Dairəsinin seçki məntəqələrində seçicilərin rahat, sərbəst, şəffaf şəraitdə səs vermələri, müşahidələrin aparılması üçün hər cür şərait yaradılıb. Hazırda Şərur Seçki Dairəsinin 78-i daimi, 2-si müvəqqəti olmaqla, ümumilikdə, 80 məntəqəsi var. Aparılan dəqiqləşdirmələr nəticəsində Şərur rayonu üzrə seçicilərin sayının 69 min 800 nəfər olduğu müəyyənləşib. Onlardan 33 min 982-si kişi, 35 min 818-i qadındır. İlk dəfə səs verənlərin sayı 338 nəfərdir, onlardan 187-si kişi, 151-i qadındır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan Respublikası



Prezidentinin Sərəncamına əsasən növbəti prezident seçkiləri 2018-ci il aprelin 11-nə təyin olunub. Prezident seçkilərinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasında, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında hazırlıq işlərinə başlanılıb. Məntəqə seçki komissiyalarının sədrləri və katibləri üçün keçirilən seminar-müşavirə də qarşıdan gələn prezident seçkilərinin ən yüksək səviyyədə keçirilməsi üçün üzərimizə düşən vəzifələrin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır.

1 saylı Şərur-Sədərək və 2 saylı Şərur Seçki dairələrinin müasir inzibati binalarla təmin edilməsi, bu dairələrin əhatə etdikləri seçki məntəqələrinin fəaliyyəti üçün də zəruri şəraitin yaradılması Şərur rayonunda seçkilərin yüksək səviyyədə keçirilməsinə geniş imkanlar açır.

Bildirilib ki, Seçki Məcəlləsinin tələbinə görə, seçki komissiyaları vətəndaşların səsvermə hüququnu təmin etmək, seçki subyektlərinin fəaliyyətini qanunun tələbinə uyğun idarə etmək, tədbirlərin qanunauyğun surətdə keçirilməsi üçün müxtəlif dövlət qurumları ilə əməkdaşlıq edir. Bu baxımdan seçkilərdə şəffaflığın təmini ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının üzərinə ciddi vəzifələr düşür. Muxtar respublikada seçkilərin hazırlanması və keçirilməsi zamanı yerli icra orqanları və seçki komissiyalarının qarşılıqlı fəaliyyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.1.5-ci maddəsinə əsasən tənzimlənir.

Prezident seçkilərində seçki məntəqələri əməkdaşlarından tələb olunan əsas məsələ səsvermə prosesində qanunvericiliyə ciddi əməl olunması, seçkilərin azad, sərbəst, şəffaf, demokratik prinsiplər əsasında keçirilməsini təmin etməkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov əvvəlki seçkilərin təcrübəsindən bəhrələnərək qarşıdan gələn prezident seçkilərinin də ən yüksək səviyyədə təşkil ediləcəyinə əminliyini bildirib.

Sonra Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini İmran Əliyevin "Məntəqə seçki komissiyalarının müvafiq inzibati binalarla, həmçinin tələb olunan inventar və avadanlıqlarla təmin olunması", Şərur Rayon Məhkəməsinin sədri Hüseyn Zülfüqarovun "Seçki hüququnun konstitusion əsasları, Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki hüququnun realizə mexanizmləri", Şərur rayon prokuroru vəzifəsini icra edən Anar Həsənovun "Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının rolu və vəzifələri", Şərur Rayon Polis Şöbəsinin rəisi Şahmar Abdullayevin "Azərbaycan Respublikası Prezidenti seçkilərində Daxili İşlər Nazirliyi orqanlarının rolu və fəaliyyət istiqamətləri", 1 saylı Şərur-Sədərək Dairə Seçki Komissiyasının katibi Fariz Rüstəmovun "Seçki günü məntəqə seçki komissiyalarında səsvermənin təşkili və səsvermə prosesi başa çatdıqdan sonra məntəqə seçki komissiyalarının üzərinə düşən əsas vəzifələr" mövzularında məruzələri dinlənilib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**✍ Muxtar MƏMMƏDOV**

* * *

Məntəqə seçki komissiyaları sədrləri və katiblərinin iştirakı ilə 6 saylı Culfa-Babək Seçki Dairəsində keçirilən seminar-müşavirəni Dairə Seçki Komissiyasının sədri Əzim Əzimov açaraq məntəqə seçki komissiyaları üzvlərinin peşə hazırlığının artırılması, seçki sahəsində bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsi və seçki günü görəcəkləri işlərdən danışıb.

Tədbirdə Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Səfərova, rayon məhkəməsinin sədri Mehrab Məmmədov, rayon prokuroru Əli Adıgözəlov, Polis Şöbəsinin rəisi Nəriman İbrahimov çıxış edərək bildiriblər ki, prezident seçkilərinin yüksək səviyyədə keçirilməsi üçün rayon ərazisində 30 seçki məntəqəsi formalaşdırılıb. Bunlardan 7 məntəqə 7 saylı Ordubad-Culfa Seçki Dairəsinin, 23 məntəqə isə 6 saylı Culfa-Babək Seçki Dairəsinin tərkibində fəaliyyət göstərir.

Qeyd olunub ki, seçkilərə hazırlıqla bağlı görülən işlər çərçivəsində məntəqə seçki komissiyalarının yerləşdiyi iş və səsvermə otaqları lazımi inventarlarla təmin olunub. Məntəqə seçki komissiyalarının yerləşdiyi binalarda, iş otaqlarında elektrik xətlərinin vəziyyəti yoxlanılıb, nasazlıqlar aradan qaldırılaraq fasiləsiz elektrik enerjisinin təminatı üçün əlavə tədbirlər görülüb. Məntəqələrin yerləşdiyi bina və iş otaqlarının telefonlaşdırılması başa çatdırılıb. Beş məntəqədə isə seçkilərin izlənilməsi üçün müşahidə kameraları quraşdırılaraq dayanıqlı internet xəttinə qoşulacaqdır. Hazırda Culfa rayonu üzrə əhalinin ümumi sayı 46 min 406 nəfərdir ki,



bunlardan da 25 min 419-u aktiv seçki hüququna malik olan seçicilərdir. Seçicilərin 12 min 584 nəfəri qadın, 12 min 835 nəfəri kişilərdir. O cümlədən seçicilərdən 130 nəfəri ilk dəfə səs verəcək gənclərdir.

Vurğulanıb ki, namizədlərə bərabər şərait yaratmaq məqsədilə "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa və Seçki Məcəlləsinin 87.6-cı maddəsinə əsasən seçkilərə 30 gün qalanadək yerlər müəyyənləşdiriləcək. Rayonun yaşayış məntəqələrinin gediş-gəliş çox olan küçə və meydanlarında seçkiqabağı təbliğat-təşviqat lövhələri yerləşdiriləcək.

Tədbir iştirakçılarına seçki hüququ və onun təminatının qanunvericilik əsasları, aşağı seçki komissiyaları və məhkəmələr tərəfindən seçki hüququnun qorunması mexanizmləri, seçki subyektləri, seçki hüququnun pozulmasına görə məsuliyyət nəzərdə tutan qanunvericilik aktları və məsuliyyət növləri, seçici siyahılarının təkmilləşdirilməsi, rəsmi seçki sənədlərinin daşınması və saxlanmasının təhlükəsizliyinin təmin edilməsi, habelə asayişin qorunmasında Daxili İşlər Nazirliyi orqanlarının rolu barədə də ətraflı məlumat verilib.

Sonra Dairə Seçki Komissiyasının sədri Əzim Əzimov seçkilər günü məntəqə seçki komissiyalarında səsvermənin təşkili və səsvermə prosesi başa çatdıqdan sonra məntəqə seçki komissiyalarının üzərinə düşən əsas vəzifələrdən danışıb və seçki prosesi ilə bağlı slayd nümayiş etdirilib.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

# "Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı kimi" mövzusunda interaktiv açıq dərs təşkil olunub



*AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün keçilən növbəti interaktiv açıq dərsdə əsrlərdən bəri yaşadılan və yüksək dövlət qayğısı ilə əhatə olunan islami dəyərlər, İslam mədəniyyəti abidələrinin qorunub saxlanması, bərpası və təbliği sahəsində aparılan işlər haqqında şagirdlərə ətraflı məlumat verilib.*

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin apardığı dərsdə bildirib ki, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən VI konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunub.

Şagirdlərin diqqətinə çatdırılıb ki, bəşər sivilizasiyasının ən qədim mərkəzlərindən biri olan, qaynaqlarda Naksuana, Nəxcuan, Nəşəva, Nəşəvi və sair adlarla xatırlanan Naxçıvan şəhəri bütün dövrlərdə, xüsusilə İslamın intibah dövründə həmişə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayıb, Azərbaycan Atabəyləri, Hülakülər, Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər dövründə ölkənin inkişaf etmiş şəhərləri ilə bir sırada dayanıb. Naxçıvan Muxtar Respublikası, həmçinin onun paytaxtında bir sıra möhtəşəm memarlıq abidələri – türbələr, buxzanalar, körpülər, məscidlər, mədrəsələr və digərləri zəmanəmizədək gəlib çatıb. Əsası çox qədim zamanlara söykənən Naxçıvan mədəniyyəti orta əsrlərdə, xüsusilə müsəlman intibahı dövründə daha da inkişaf edib, burada Azərbaycan memarlığının ən möhtəşəm qollarından biri olan Naxçıvan məktəbi yaranıb, bu məktəb memarlıq tariximizə Əcəmi Əbubəkr oğlu Naxçıvani kimi görkəmli memar bəxş edib. Onun Naxçıvan şəhərində ucaltdığı Möminə xatın, Yusif Küseyir oğlu türbələri, Qoşa minarəli baştağ, Came məscidi Azərbaycan memarlığının möhtəşəm nümunələri olmaqla yanaşı, həm də İslam mədəniyyətinin çox gözəl örnəkləridir.

Fəxrəddin Səfərli bildirib ki, ümummilli lider Heydər Əliyevin ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdışından sonra xalqımızın mədəni irsinə münasibət tamamilə dəyişib. Beləliklə, qədim memarlıq nümunələri, geniş mənada, ümumislam mədəniyyətinə aid olan bütün abidələr böyük dövlət qayğısı ilə əhatə edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə bu tədbirlər çox yüksək səviyyədə həyata keçirilir. Qeyd etmək lazımdır ki, təkcə Naxçıvan şəhərində Möminə xatın türbəsi, İmamzadə kompleksi, Miryaqub xanəgahı, Buzxana, Xan sarayı, Xan sarayının yardımçı binası, Came və Pirqəmiş məscidləri, Zaviyə-mədrəsə kompleksi bərpa olunub, Kazım Qarabəkir Paşa və Həzrəti Zəhra məscidləri tikilib əhalinin istifadəsinə verilib. İndiyədək muxtar respublika ərazisində 70-ə yaxın müxtəlif təyinatlı tarix və mədəniyyət abidəsi orijinallığı saxlanılmaqla yüksək səviyyədə bərpa olunaraq xalqa qaytarılıb.

Alim bildirib ki, təkcə 2016-cı ildə Azərbaycan xalqının məğlubedilməzlik rəmzi olan Culfa rayonundakı Əlincəqalada, XII əsr Azərbaycan memarlığının təkrarolunmaz nümunələrindən sayılan Gülüstan türbəsində, Şərur rayonunun Xanlıqlar (Parçı) kəndindəki imamzadədə bərpa işləri başa çatdırılıb, Babək rayonunun Nehrəm kəndində isə möhtəşəm məscid inşa edilərək əhalinin istifadəsinə verilib. Hazırda Kəngərli rayonunun Qarabağlar kəndində XII-XIV yüzilliklərə aid Qarabağlar Türbə Kompleksində, Şərur rayonunun Yengicə kəndindəki hamamda, Naxçıvan şəhər və Nehrəm kənd İmamzadə komplekslərində bərpa işləri aparılmaqdadır.



*Naxçıvan şəhər 2 nömrəli tam orta məktəb*



*Babək qəsəbə 1 nömrəli tam orta məktəb*

Bütün bunlarla yanaşı, son illərdə Naxçıvanda müasir infrastruktur, şəhərə gələn qonaqların yerləşdirilməsini, istirahətini, gəzintisini, ekskursiyalarını təşkil etmək üçün yaradılan şərait də Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsində başlıca amil rolunu oynayıb. Belə ki, İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) təklifi ilə İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirlərinin 2004-cü il dekabrın 15-17-də Əlcəzairdə keçirilmiş IV konfransında təsdiqlənmiş "İslam mədəniyyətinin paytaxtları" proqramına əsasən hər hansı bir şəhərin İslam mədəniyyətinin paytaxtı elan olunması üçün həmin şəhər bir sıra keyfiyyətlərə malik olmalıdır. Belə ki, həmin paytaxt ölkə və region səviyyəsində mühüm tarixi keçmişə, İslam və bəşər mədəniyyətində elm, incəsənət, ədəbiyyat sahəsində töhfələrə, elmi-tədqiqat, arxeoloji təhsil mərkəzlərinə, fərdi və kollektiv şəkildə mədəni tədbirlər təşkil edən qurumlara malik olmalıdır. Müasir Naxçıvan şəhəri isə bütün bu tələblərə cavab verir.

Dərsdə vurğulanıb ki, Naxçıvan şəhərində, bütövlükdə, muxtar respublikada iyirmi ildən bəri aparılan məqsədyönlü siyasət, xüsusilə genişmiqyaslı abadlıq və quruculuq işləri, milli və dini dəyərlərə hörmət və ehtiram, yüksək dövlət qayğısı ilə onların qorunması, inkişaf etdirilməsi, Azərbaycan, eyni zamanda İslam mədəniyyətinə mənsub abidələrin bərpası, qorunub saxlanması, bu işlərin yüksək səviyyədə təbliği, beynəlxalq ictimaiyyətə çatdırılması xüsusi rol oynayıb. 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi Naxçıvan şəhərinin islami dəyərlərə və mədəniyyətlərarası dialoqa verdiyi töhfələrlə əlaqədardır.

Açıq dərs muxtar respublikanın 200-dən artıq ümumtəhsil məktəbində izlənilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*Görkəmli demokrat ədib, tanınmış yazıçı-publisist Cəlil Məmmədquluzadə (1869-1932) XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı, mətbuatı və ictimai fikrinin bayraqdarı, Azərbaycançılıq ideologiyasının yaradıcılarından biridir.*

**Ulu öndər Heydər ƏLİYEV:** ***Cəlil Məmmədquluzadənin böyüklüyü həm şəxsi həyatında və fəaliyyətində, həm yaradıcılığında ondan ibarətdir ki, o, ... ümumbəşəri dəyərləri dərk edib, öz milliliyi ilə öz ana dili ilə, öz milli kökləri ilə birləşdirərək Mirzə Cəlil – Cəlil Məmmədquluzadə olmuşdur.***

*Ədəbi irsimizdən*

# Ədəbiyyatımızın və mətbuatımızın istiqlal günəşi

Məşhur yazıçı, böyük ictimai xadim ədəbiyyat tariximizə Azərbaycan ədəbiyyatında kiçik hekayənin böyük ustadı, tənqidi-realist nəsrin banisi kimi düşmüşdür. XX əsrin əvvəllərindən bədii yaradıcılıqla ardıcıl məşğul olan böyük yazıçının "Poçt qutusu", "Usta Zeynal", "Dəllək", "İranda hürriyyət", "Fatma xala", "Qurbanəli bəy", "Quzu", "Nigarançılıq", "Konsulun arvadı" və sair hekayələri bu gün də bədii nəsrimizin unikal nümunələri hesab edilir. Cəlil Məmmədquluzadənin sovet dövrü hekayələrində, o cümlədən "Taxıl həkimi", "Hamballar", "Oğru inək" kimi bədii nümunələrdə cəmiyyətin əyintiləri və eybəcərlikləri diqqətə çatdırılmışdır.



Mirzə Cəlil Azərbaycan dramaturgiyası tarixində tragikomediya mərhələsinin yaradıcısı kimi iz qoymuşdur. Ədibin canlı xalq dili, Azərbaycan danışıq üslubu ilə seçilən əsərləri kiçik adamı böyük ədəbiyyatın əsas qəhrəmanı etməsi ilə də mühüm ədəbi mərhələni təşkil edir. Onun ilk dram əsəri, ilk alleqorik və mənzum pyesi "Çay dəstgahı"dır. Ədibin komediyaları faciəviliyi ilə də seçilir. Məşhur "Ölülər" əsəri Azərbaycan tragikomediyasının zirvəsini təşkil etməklə, bütövlükdə, türk-müsəlman dünyasının cəhalət və mövhumata qarşı mübarizəyə səsləyən qüdrətli əsərdir.

Görkəmli mirzəcəlilşünas, akademik İsa Həbibbəyli "Anamın kitabı" dramına "Azərbaycançılığın ədəbi manifesti", "Azərbaycana aid olmayan fərqli düşüncələrə malik üç qardaşın komediyası, Ananın faciəsi, Gülbaharın dramı" elmi-bədii dəyərini vermişdir.

"Kişmiş oyunu" və "Kamança" kimi öz ideyasına görə bu gün də aktuallığını qoruyub saxlayan birpərdəli pyeslər, milli humanizmi, qəhrəmanlıq və şücaəti əks etdirən "Kamança" əsəri bu gün də ədəbi-bədii dəyərini qorumaqdadır.

Ədibin sovet hakimiyyəti illərində yazdığı, sovet cəmiyyətinin bütün reallıqlarını və eybəcərliklərini əks etdirən "Dəli yığıncağı" pyesi, həmin dövrə məxsus, ilk dəfə akademik İsa Həbibbəyli tərəfindən tapılıb elmi-ədəbi ictimaiyyətə təqdim edilən "Ər" pyesində, "Lal", "Lənət", "Oyunbazlar" səhnəciklərində milli cəhalət və avamlıq, gerilik və nadanlıq tənqid hədəfinə çevrilmişdir.

Ustad Mirzə Cəlilin adı mətbuat tariximizə xüsusilə qızıl hərflərlə həkk olunmuşdur. O, Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş milli mətbuatımızı, Azərbaycan mühərrirlik sənətini davam və inkişaf etdirərək onu yeni, yüksək mərhələyə çatdırmışdır. Gözəl dramaturq, usta hekayənəfis olmasaydı belə, onun mollanəsrəddinçi publisist fəaliyyəti şifahi xalq ədəbiyyatının özü qədər əbədiyaşar millilik, şərqlilik epopeyasıdır.

1902-ci ildə dərc olunan ilk məqaləsi ilə ömürlük mətbuat dünyasına bağlanan, jurnalistikanı həyatının əsas qayəsi edən Cəlil Məmmədquluzadə "Şərqi-Rus" qəzetindəki əməkdaşlıq və müvəqqəti redaktorluq fəaliyyəti ilə "universitetin jurnalistika fakültəsində oxumaq qədər" zəngin qəzetçilik və naşirlik məktəbi keçmişdir. "Mətbuat dünyasına keçidin baş məşqi rolunu oynayan" bu fəaliyyətindən sonra isə o, Şərq istibdadına və cəhalətinə qarşı ən kəskin mübarizə silahı olan ilk satirik jurnal – "Molla Nəsrəddin"in nəşri ilə satirik publisistikanın təməlini qoymuş, ədəbiyyat və mətbuat tariximizdə böyük bir ədəbi dövr, ədəbi məktəb yaratmışdır.

Cəlil Məmmədquluzadənin redaktorluğu ilə 20 aprel 1906-cı ildə Tiflisdə nəşr olunmağa başlayan jurnal 25 il ərzində Qafqaz xalqlarının, bütövlükdə, Şərq dünyasının, Azərbaycanın milli oyanış və dirçəlişində mühüm rol oynamışdır. "Molla Nəsrəddin" jurnalı Azərbaycan tənqidi realizm ədəbiyyatının, satirik publisistikasının ideya-sənət məbədidir. Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi kimi jurnal ətrafında Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz Şəbüstəri və digər görkəmli sənətkarları birləşdirmişdir.

Təsadüfi deyil ki, akademik İsa Həbibbəyli mübariz ideyalarına və qətiyyətli mövqeyinə görə "Molla Nəsrəddin" jurnalını "Azərbaycan xalqının istiqlal kitabı", mollanəsrəddinçi yazıçı və şairlərin "əsərlərinin çoxcildlik külliyyatı" adlandırmışdır. "Molla Nəsrəddin", eyni zamanda satirik publisistika məktəbidir. İdeya-bədii istiqamətvericiliyi ilə mollanəsrəddinçilərin ağsaqqal qələm yoldaşı olan ustad Mirzə Cəlilin jurnaldakı çoxsaylı məqalə və felyetonları hər zaman öz aktuallığını qoruyan, cəmiyyətdəki eybəcərlikləri, nöqsanları ifşa edən satirik-publisistika nümunələridir.

Bir faktı da qeyd etmək yerinə düşər ki, uzun illər boyu sovet ideologiyasının təsiri ilə bütün mütərəqqi fikirli ziyalılar kimi, Cəlil Məmmədquluzadənin, eləcə də "Molla Nəsrəddin" jurnalının 1917-1920-ci illərdə gedən demokratik cəmiyyət quruculuğu uğrunda mübarizədə böyük xidmətləri danılmış və ya "keçici inam", "müvəqqəti aldanış", "təzliklə ümidlərin puç olması" kimi yanlış təbliğ olunmuşdur.

Cəlil Məmmədquluzadə yaradıcılığının bu mərhələsi milli özünüdərk və soy-kökünə qayıdış baxımından ilk dəfə akademik İsa Həbibbəylinin "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" əsərində ətraflı tədqiq edilmişdir. Tanınmış mirzəcəlilşünas indiyə qədərki tədqiqatçılardan fərqli olaraq Cəlil Məmmədquluzadə-Azərbaycan Demokratik Respublikası münasibətlərinə də bir aydınlıq gətirmişdir. Ədibin bu dövrdə yazdığı, "milli manifest kimi səslənən" "Azərbaycan" adlı məqaləsi isə xalqı zamanın verdiyi bu fürsəti dəyərləndirməyə, öz müqəddəratını özü həll etməyə səsləyən bir çağırış idi:

"Ax unudulmuş vətən, ax yazıq vətən!

Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir- birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb, dağılmış evlərini bina etməyə üz qoydular.

Bəs sən hardasan, ay biçarə vətən?!"

1918-ci ildə yazılmış "Cümhuriyyət" məqaləsində (geniş xalq kütlələri qarşısında çıxışının mətni) isə o, bir ictimai xadim kimi demokratik cəmiyyət quruluşunun mahiyyətini açmaq və tam mənası ilə xalqa çatdırmağı özünün vətəndaşlıq borcu bilir. Məqalədə "respublika" sözünün mənası, tarixi, idarəetmə, seçki və azadlıqlar haqqında ədibin dəyərli mülahizələri verilmişdir.

Ədibin publisistik fəaliyyətini səciyyələndirən əsas istiqamətlərdən biri də onun yeni türk əlifbası ilə çıxan ilk türk qəzeti, Yeni Türk Əlifba Komitəsinin orqanı olan "Yeni yol" (1922-1939) qəzetindəki fəaliyyətidir. Qəzetin 20 iyun 1923-cü il tarixli sayına qədər ilk baş redaktor kimi fəaliyyət göstərən ədib sonralar – 1 may 1924-cü ilədək də bu mətbu orqanın fəaliyyətində əvəzsiz xidmətlər göstərmişdir. Cəlil Məmmədquluzadənin "xalqın ürəyindən qopan publisistika"sında onun "Yeni yol" qəzetindəki yaradıcılığının əsas və önəmli yeri var.

Yüksək bədiilik, obrazlılıq, səciyyəvi və tipik obrazlar qalereyası, hədsiz tələbkarlıq və böyük ideallar uğrunda məqsədyönlü mübarizə Mirzə Cəlilin realist publisistikasının başlıca keyfiyyətləridir. Sadə, anlaşıqlı danışıq dili, fikir sərrastlığı və aydınlığı, toxunulan problemlərin kəskinliyi və konkretliyi dahi ədibin yaradıcılığının əsas məziyyətlərindəndir. Təsirli ifadə vasitələri, təhkiyədəki dəqiqlik və inandırıcılıq, təsvirlərin yığcamlılığı və təsir gücü, xarakterlərin dolğunluğu, maraqlı psixoloji məqamlar – bütün bunlar bu publisistik əsərləri oxunaqlı edən, hər dəfə daha dərin və yeni bir məna kəsb etmələrinə rəvac verən başlıca vasitələrdir. Zəngin həyat müşahidəçiliyi, mövzular aləminin genişliyi, sənətkarlıq boyalarının əlvanlığı, dil orijinallığı və üslub çoxcəhətliliyi Mirzə Cəlil publisistikasının əsas leytmotividir.

Ən ağır məşəqqətlərə, mənəvi iztirablara, təhqirlərə məruz qalmasına baxmayaraq, öz qələmi ilə xalqının xoşbəxtliyi uğrunda əzmlə çarpışan görkəmli dramaturq, yazıçı-publisistin zəngin, şərəfli həyat və yaradıcılıq yolu bu gün hər bir qələm sahibi üçün əsl məktəbdir. Çünki böyük ədib Cəlil Məmmədquluzadənin bütün həyatı və yaradıcılığı Azərbaycançılıq idealının həyata keçirilməsinə həsr olunmuşdur. Onun milli istiqlal arzuları, ədibin əsərləri və ideyaları müstəqil dövlətimizin daha da möhkəmləndirilməsinə uğurla xidmət edir. Ümummilli liderimiz Heydər Əliyev Mirzə Cəlil irsinə yüksək qiymət verərək demişdir: ***"Cəlil Məmmədquluzadənin böyüklüyü həm şəxsi həyatında, həm fəaliyyətində, həm yaradıcılığında ondan ibarətdir ki, o, ... ümumbəşəri dəyərləri dərk edib, öz milliliyi ilə öz ana dili ilə, öz milli kökləri ilə birləşdirərək Mirzə Cəlil – Cəlil Məmmədquluzadə olmuşdur".***

Təsadüfi deyil ki, bu gün də öz əməlləri və işıqlı ideyaları ilə müasirimiz olan görkəmli ədibin adı respublikamızda əbədiləşdirilmiş, Bakıda, Naxçıvan şəhərində, Cəlilabad rayonunda heykəlləri ucaldılmışdır. Onun 100, 125, 140 illik yubileyləri geniş qeyd olunmuşdur. Bu gün Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi, Naxçıvan Dövlət Musiqili Dram Teatrı görkəmli ədibin adını daşıyır. Böyük yazıçının Naxçıvan şəhərindəki ev-muzeyi, Cəlilkənddə və Nehrəmdə Cəlil Məmmədquluzadə Xatirə muzeyləri fəaliyyət göstərir.

Əsərləri ən çox nəşr və tədqiq olunan ədib də elə Cəlil Məmmədquluzadədir desək, yanılmarıq. Ədəbiyyatımızda Mirzə Cəlil yaradıcılığına dəfələrlə müraciət olunmuş, onun həyat və yaradıcılığının Məmməd Cəfər, Əziz Şərif, Qulam Məmmədli, Əziz Mirəhmədov kimi tanınmış ədəbiyyatşünaslarımız tərəfindən dəfələrlə tədqiq olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli isə Cəlil Məmmədquluzadə irsinin və şəxsiyyətinin öyrənilməsində dahi ədibin öz xalqı üçün etdiyi fədakarlıqlar qədər böyük cəfakeşlik göstərmişdir. Yorulmaz və davamlı elmi araşdırmaları, qiymətli elmi tapıntıları ilə görkəmli akademik bu gün də ədəbiyyatşünaslığa, mirzəcəlilşünaslığa qiymətli töhfələr verməkdədir.

Cild-cild monoqrafiyalar, çoxillik elmi tədqiqatlar həsr olunmuş Mirzə Cəlil yaradıcılığını kiçik qəzet məqaləsində əhatə etmək qeyri-mümkün olsa da, dahi ədibin zəngin və çoxcəhətli yaradıcılığının konturlarını cızmağa, fəaliyyət əhatəliliyini qismən də olsa, siz oxuculara təqdim etməyə çalışdıq.

*Görkəmli publisistin pedaqoji görüşlərini əks etdirən, yaradıcılıq dəst-xəttinə və üslubuna görə, "Yeni yol" qəzeti redaksiyası əməkdaşları arasında məhz onun çoxillik pedaqoji fəaliyyət göstərməsinə görə "Köhnə müəllim" imzası işlətməyə mənəvi haqqı çatdığına görə ona məxsus olduğu müəyyənləşdirilən, bu gün də öz aktuallığını qoruyub saxlayan "Uşaqlarımız" adlı məqaləni oxucularımıza təqdim etməklə görkəmli yazıçı-publisistin ruhunu ehtiramla yad etməyi mənəvi borcumuz bildik.*

**Mehriban SULTAN**
**filologiya üzrə fəlsəfə doktoru**

## Uşaqlarımız

Bizim içərimizdə qədim vaxtlardan adət belə olub ki, uşaqlarımızı böyük adamların məclisindən uzaq saxlamışıq. Ola bilər ki, bu adət arvadlarımızın kişilərdən gizlənməyindən törəyibdir. Belə ki, arvadları kişi məclisindən qovanda biz uşaqları da analarının yanına qovmuşuq.

Və beləliklə uşaqlar kişilərin yanından uzaq düşüb vaxtlarını ya arvadlar məclisində, ya küçə-bacada keçirtməyə məcbur olublar.

Biz özümüz uşaqlıqda belə görmüşük və bu səbəbdən də sair millətlərin cavanları öz vaxtında dərs və tərbiyəni tamam etdikdə biz onlardan azından on il gecikmişik.

***

Həmin səbəbə görə indi bir çox nöqsanlar qabağımıza gəlməkdədir ki, bunların hamısı yenə uşağı özümüzdən kənar eləməyimizdən törəyir.

Ümumiyyətlə deyə bilərik ki, qeyri-millətlərə nisbətən uşaqları çox az istəyirik, onlara az etina edirik. Biz elə bilirik ki, uşağı öz vaxtında yaman-yaxşı bir mədrəsəyə qoyandan sonra dəxi bunnan bizim təklifimiz qurtardı getdi. Hərdənbir də, məsələn: dörd-beş ayda bir dəfə gedirik mədrəsə müdirindən uşağımızın yaxşı ya pis oxumağını xəbərləşirik və elə bilirik ki, dəxi biz atalıq vəzifəsini tamam edib qurtardıq. Amma bu böyüklükdə məsələni unuduruq ki, elmi ələ gətirmək ilə tərbiyə işi gərək tuş gedələr, hələ bəlkə tərbiyə məsələlərini elm təhsilindən yuxarı tutmaq lazımdır.

***

Mədrəsədə oxuyan vaxtda da, hətta mədrəsəni qurtaran vaxtlarda da biz yenə uşaqlarımızı özümüzə o dərəcədə yaxın saxlamırıq, nətəri sair mədəni millətlər saxlayırlar.

Çox atalar uşaqları oxuduğu məktəbin yolunu və harada olmağını tanımırlar, çünki arxayındılar ki, övladları orada dərslərini oxumaqdadırlar. Odur ki, məktəblərin valideyn şurasında az iştirak edən millətlərin birincisi bizik və bu özü geridə qalmağımıza bir böyük dəlildir. Biz buna etina etmək istəmirik ki, aya, görək uşaqlarımız harada oxuyur, nə dərs oxuyur, nə üsul ilə oxuyur, hansı mühitdə və nə mənada oxuyur və deyirik ki, uşaqlarımız nə oxuyurlar oxusunlar, ancaq bizə çox baş ağrısı verməsinlər.

Uşaqlarımıza bir çörək-paltar verməklə, onları dərsə qoymaqla bizim borcumuz hələ tamamilə qurtarmır, uşaqlarımızın gününün xoş keçməsi yolunda da çalışmalıyıq.

Biz gərək elə xəyal etməyək ki, uşaqlarımıza küçədə aşıq-aşıq oyunundan savayı özgə məşğələ lazım deyil, hələ bəlkə bu aşıq-aşıq oyununu da çox atalarımız uşaqlarına çox görürlər. Halbuki uşaqlar bu surətdə ki, həmişə dərs oxumaq ilə fikirlərini yormaqdadırlar – biz böyüklərdən də artıq ruhları şadlıq və sevinmək ilə dincəlməyə möhtacdırlar.

Əlbəttə, uşaq özü bu barədə öz fikrinə qalacaq və biz dedikdə özü üçün məşğələ axtarıb tapacaq – bu təbiidir. Amma söz burasındadır ki, biz bu işdə gərək uşaqları özbaşına buraxmayaq, biz bu barədə gərək onlara kömək edək, onlara yol göstərək və uşaqları lazımsız və bəlkə, xatalı məşğələlərdən uzaqlaşdırıb onlar üçün faydalı və daha da xoş vaxt keçirtmək dəstgahları düzəltməyə ciddi-cəhd edək.

Və heç bilən varmı ki, burada bizim böyük əskikliyimiz nədir?

***

Uşaq teatrının nədən ibarət olması özgə bir söhbətdir ki, gələn nömrələrimizin birində bu barədə ayrı bir məqalədə danışarıq, amma burada bircə bunu söyləmək lazımdır ki, uşaqlara məxsus teatrlarımızın olmamağı bais olur buna ki, uşaqlarımız biz böyükləri gecə teatrına gedən gördükdə və bu teatrların qışqırıqlı oxuyub-çalmalarını eşitdikdə bizdən xəbərsiz həmin teatrlara doluşub biz böyüklərdən qabaq səhnə görsənişlərinə əl çalırlar. Amma bu belə olmamalı: özgə işlərdə də səliqəsiz olmağımız ötüşsə burada ötüşməyəcək, ondan ötrü ki, bizim bu gödək ömrümüzdə bizə tək bircə dəfə uşağa tərbiyə vermək qismət olacaq. Bu işi də labüd biz gərək öyrənək – öyrənməsək, böyük insafsızlıq eləmiş olacağıq.

***Köhnə müəllim***
***"Yeni yol", 27 yanvar-3 fevral 1923, N° 4-5.***

Mədəniyyət müəssisələrimiz

# Bu kənddə görkəmli ədibin adı ilə yanaşı, xatirələri də yaşadılır



*Bu gün Naxçıvan Muxtar Respublikasında Cəlil Məmmədquluzadənin adı ilə bağlı üç muzey fəaliyyət göstərir. Bu muzeylərdən biri Cəlil Məmmədquluzadənin doğulub boya-başa çatdığı Naxçıvan şəhərində, digər ikisi isə ədibin müəllimlik etdiyi Babək rayonunun Nehrəm kəndində və Şərur rayonunun Cəlilkəndindədir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi də böyük yazıçının adını daşıyır. Bütün bunlar Mirzə Cəlil sənətinə dövlət qayğısı və ümumxalq məhəbbətidir.*





Yaxın günlərdə belə məkanlardan birində, Mirzə Cəlilin Şərur rayonundakı Cəlilkənddə fəaliyyət göstərən Xatirə Muzeyində olduq. Qeyd edək ki, Cəlil Məmmədquluzadə Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra 1887-ci il oktyabr ayının 13-dən 1890-cı il yanvarın 13-dək bu kənddəki ibtidai məktəbdə pedaqoji fəaliyyətlə məşğul olub. Öyrəndik ki, bədii yaradıcılığa bu yaşayış məntəqəsində başlayan Cəlil Məmmədquluzadənin buradakı Xatirə Muzeyi 1987-ci ildə Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinin filialı kimi yaradılıb, 2013-cü ildən isə müstəqil mədəniyyət müəssisəsi kimi fəaliyyət göstərir. 2015-ci ildə muzeyin binası tamamilə yenidən qurulub.

Muzey giriş hissədən, 3 ekspozisiya və 2 iş otağından ibarətdir. Giriş hissədə ədibin büstü, eləcə də 125 illik yubiley tədbirində çıxış edən ulu öndər Heydər Əliyevin portreti, Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətinə dair müxtəlif kitablar nümayiş etdirilir. Muzeyin fondunda ədibin həyat və yaradıcılığına dair 439 eksponat var. Onlardan 274-ü ekspozisiyada nümayiş olunur.

Muzeyin birinci otağında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Cəlil Məmmədquluzadənin 140 illik yubileyinə həsr olunmuş Tədbirlər Planının təsdiq edilməsi haqqında" 2009-cu il 14 fevral tarixli Sərəncamının mətni, Cəlilkənd məktəbinə Cəlil Məmmədquluzadənin adının verilməsi haqqında 4 mart 1957-ci il tarixli qərar, Baş Noraşen kəndinin adının dəyişdirilərək "Cəlilkənd" adlandırılması barədə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1967-ci il 5 iyun tarixli fərmanı yer alıb.

Cəlil Məmmədquluzadənin təhsil illərinə və pedaqoji fəaliyyətinə aid müxtəlif sənədlərin əsli və fotosurətləri, Cəlilkənd məktəbinin 1891-ci ilə aid şəxsi heyətinin siyahısı, sinif jurnalları və digər arxiv materialları, ədibin Qori Müəllimlər Seminariyasında təhsil alarkən çəkilmiş fotoşəkli, Cəlilkənd məktəbinin həmin dövrə aid maketi, məktəbli masası, kitab rəfi nümayiş etdirilir.

Muzeyin guşələrində həmin məktəbin məzunları olan Naxçıvan Muxtar Respublikasının ilk ali təhsilli hüquqşünası Cəlil Səfiyev və ilk ali təhsilli həkimi Şenqulu Səfiyev haqqında da ətraflı məlumat almaq olar.

Muzeyin ikinci otağında Cəlil Məmmədquluzadənin ailə üzvlərinə aid eksponatlar, atası Məmmədqulu Məşədi Hüseynqulu oğlunun fotoşəkli, ədibin müxtəlif portretləri, fəal mollanəsrəddinçilərin fotoşəkilləri, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Cəlil Məmmədquluzadə haqqında söylədiyi fikirlər, "Molla Nəsrəddin" jurnalının müxtəlif illərə aid nömrələri, jurnaldan götürülmüş karikaturalar nümayiş etdirilir.

1925-ci ildə kitab şəklində nəşr olunmuş "Ölülər" pyesi, eləcə də 1907-ci ildə "Qeyrət" mətbəəsində kitab şəklində işıq üzü görmüş "Poçt qutusu" hekayəsi ekspozisiyada nümayiş etdirilən eksponatlar sırasındadır.

Cəlil Məmmədquluzadənin həyat yoldaşı, tanınmış ziyalı Həmidə xanım Məmmədquluzadə ilə birgə rəsm əsəri də ekspozisiyada nümayiş etdirilir.

Akademik İsa Həbibbəylinin "Molla Nəsrəddinçi karikatura ustası", "Molla Nəsrəddin", "Cəlil Məmmədquluzadə" əsərləri və digər nəşrlər ayrıca vitrində yer alıb.

Burada, həmçinin Cəlil Məmmədquluzadənin Naxçıvan teatrında tamaşaya qoyulmuş əsərlərinə aid məlumat və fotoşəkillər də nümayiş olunur. Qeyd edək ki, dahi yazıçının 1889-cu ildə Cəlilkənd məktəbində işlədiyi dövrdə ilk qələm təcrübəsi olan "Çay dəstgahı" adlı əsəri elə həmin ildə Cəlilkənd məktəbinin müəllim və şagirdləri tərəfindən tamaşaya qoyulub və tamaşanın rejissoru da müəllifin özü olub. Burada Cəlil Məmmədquluzadənin Naxçıvan teatrında səhnəyə qoyulan əsərlərinin fotoşəkilləri ilə tanış olmaq da mümkündür.

Muzeyin fonduna bu günlərdə yeni bir eksponat da əlavə edilib. Bu, Mirzə Cəlilin müəllim yoldaşı olan Tağı Səfiyevin 1921-ci ildə Zaqafqaziya dövlətlərinin nümayəndəsi kimi iştirakçısı olduğu Qars müqaviləsinin 4405 nömrəli qərarının surətidir. Həmin qərarda Tağı Səfiyevin də imzası var.

Bu gün muxtar respublikamızda xalqımızın çoxəsrlik tarixə malik maddi-mədəni irsinin gələcək nəsillərə çatdırılmasında əvəzsiz rolu olan muzeylərin qorunub saxlanılması istiqamətində çox gözəl və diqqətəlayiq işlər görülməsi hamımızı sevindirir.

✍ **Rəmiyyə ƏKBƏROVA**

*Fevralın 21-də Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Beynəlxalq Ana Dili Günü ilə bağlı tədbir keçirilib.*

# Beynəlxalq Ana Dili Günü ilə bağlı tədbir keçirilib



Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova tədbirdə çıxış edərək bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyev dilimizin hərtərəfli inkişafı, onun rəsmi dövlət dili statusu alması, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması üçün çox böyük işlər görüb, dil siyasətinə mühüm əhəmiyyət verib. Ulu öndər hakimiyyətdə olduğu hər iki dövrdə Azərbaycan dili əsaslı şəkildə elmi tədqiqatların obyekti olub, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılıb.

Görkəmli dövlət xadiminin siyasi kursunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev dilimizin daha geniş təbliğinə hərtərəfli imkanlar yaradıb. Bu gün inkişaf etmiş bir çox dünya dövlətlərində Azərbaycan dilində təlim verən məktəblər açılıb, həmin məktəblər doğma dilimizdə olan dərsliklərlə, metodik və bədii ədəbiyyatlarla təmin edilib. Artıq dilimiz dünyanın mötəbər kürsülərindən, beynəlxalq tədbirlərdən, teatr səhnələrindən, konsert salonlarından, elmi müəssisələrdən, idman saraylarından, ordu hissələrindən hər gün, hər an əzəmətlə, məğrur səslə eşidilməkdədir.

"Müasir dövrdə muxtar respublikamızda da dövlət dil siyasəti uğurla həyata keçirilir", – deyən Natəvan Qədimova bildirib ki, istər şifahi, istərsə də yazılı nitqdə dildən düzgün istifadə olunması, ana dilimizin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi, təbliği diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə reallaşdırılan tədbirlər ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Ölkədə ilk "Ana dili" abidəsinin Naxçıvan şəhərində ucaldılması dilimizə ehtiramın ən böyük ifadəsidir.

Muxtar respublika Yazıçılar Birliyinin Sədri, Əməkdar mədəniyyət işçisi Asim Əliyev qeyd edib ki, Azərbaycan dilində zəngin xalq yaradıcılığı nümunələri – dastanlar, nağıllar, bayatılar, rəvayətlər, əfsanələr, atalar sözləri, mahnılar yaranıb, min illərin dil çeşməsində durularaq və sınaqlardan keçərək XXI əsrə gəlib çıxıb. Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Mirzə Ələkbər Sabir, Məmməd Araz və digər görkəmli söz ustaları bu dildə yazaraq xalqımız üçün ölməz sənət nümunələri yaradıblar.

Sonra AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun aparıcı elmi-işçisi, filologiya üzrə fəlsəfə doktoru Zülfiyyə İsmayılın "Ana dili milli sərvətimizdir", Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanovanın "Ana dilimizin təbliğində kitabxanaların rolu" mövzusunda çıxışları olub.

Tədbirdə şairlər Yadulla Zaman, Əbülfəz Ülvi ana dilimizə həsr etdiyi şeirlərini oxuyub, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorları Xalq artisti Həsən Ağasoy, Nurbəniz Niftəliyeva, Anar Eyvazov şairlərimizin ana dili ilə bağlı şeirlərini bədii qiraət ediblər.

Tədbirin sonunda sərgiyə baxış olub.

**Əli RZAYEV**

# Muzey ziyarətləri davam edir



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrinin zabitlərinin muzeylərə ekskursiyaları davam edir.*

Sərəncama uyğun olaraq "Muzey günlərinin" tərtib edilməsi birləşmə və hissələri zabitlərinin Naxçıvan Muxtar Respublikasındakı muzeyləri ziyarət etməsinə, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi və milli dəyərlərimizi özündə yaşadan eksponatlarla əyani tanış olmasına şərait yaradıb.

Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrinin zabitləri növbəti dəfə Heydər Əliyev Muzeyini, Dövlət Bayrağı Muzeyini, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini, Bəhruz Kəngərli Muzeyini, Cəlil Məmmədquluzadənin ev-muzeyini, Xatirə Muzeyini, eləcə də muxtar respublikanın rayonlarında yerləşən tarix-diyarşünaslıq muzeylərini ziyarət ediblər. Muzey bələdçiləri tərəfindən zabitlərə ətraflı məlumat verilib.

Müxtəlif profilli geniş muzeylər şəbəkəsinin yaradıldığı muxtar respublikamızda hərbi qulluqçuların muzeylərlə tanış olması mənəvi-psixoloji hazırlığa müsbət təsir göstərir. Təkcə Naxçıvan şəhərində deyil, muxtar respublikanın rayonlarında da muzeylərin fəaliyyət göstərməsi burada yerləşən hərbi hissələrin zabitlərinin zəngin tarix və mədəniyyətimizlə yanaşı, görkəmli şəxsiyyətlərimiz haqqında da ətraflı məlumat almalarına imkan verir.

**Nəriman NƏCƏFOV**

# Xocalı soyqırımına həsr edilmiş rəsm sərgisi təşkil olunub



*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş rəsm sərgisi təşkil edilib.*

Sərginin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək diqqətə çatdırıb ki, Xocalı soyqırımı bəşəriyyətə qarşı törədilən cinayətdir. Ona görə də Azərbaycan xalqı və bütün mütərəqqi bəşəriyyət bu amansız qətliamı heç zaman unutmayacaq.

Ülviyyə Həmzəyeva bu faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl iş aparıldığını və bu işdə hər bir azərbaycanlının fəal iştirakının vətəndaşlıq borcu olduğunu bildirib. Vurğulayıb ki, Xocalıya həsr edilən sərgidə gənclərimizin fəallığı nümayiş etdirməsi vətənpərvər ruhlu gənc nəslin yetişdiyini göstərir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov qeyd edib ki, qədim və zəngin tarixə malik olan ölkəmiz tarixin dolaylarında çox çətin məqamlarla üzləşib, faciələr yaşayıb, şəhidlər verib. Ancaq xalqımız heç vaxt öz mətanətini itirməyib, qarşılaşdığı hər bir çətinliyin önündə məğrur dayanıb. Əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı təsviri sənət ustalarımızın yaradıcılığında da öz əksini tapıb. Naxçıvanlı rəssamlar da bu mövzularda müxtəlif janr və üslubda rəsm əsərləri yaradıblar.

Sonra sərgiyə baxış olub. Sərgidə 24 rəssamın 44 əsəri nümayiş olunur. Həmin rəsm əsərləri iştirakçılar tərəfindən maraqla qarşılanıb.

✍ **Fatma BABAYEVA**

***İtmişdir***

Novruzov Niyazi Məhəmmədəli oğlunun adına olan torpağa mülkiyyət hüququna dair 683 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Novruzov Həsənalı Məhəmmədəli oğlunun adına olan torpağa mülkiyyət hüququna dair 682 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Qarabağlar kəndində yaşamış İbrahimov İbrahim İsmayıl oğlunun adına olan $1191^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Abbasova Yeganə Qədir qızının adına olan evin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 160